# AZƏRBAYCAN QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ

Azərbaycan, Bakı şəhəri Heydər Əliyev pr. 185B, info@afsa.gov.az; Telefon: 1003, http://afsa.gov.az/az/home

Dövlət qeydiyyatına alınmışdır:
QEYDİYYAT ŞƏHADƏTNAMƏSİ
№ BP-Q-03230004
Qida Təhlükəsizliyi Agentliyinin
Heyvan sağlamlığı şöbəsinin müdiri QALİB ƏBDÜLƏLİYEV

Baş Dövlət Baytarlıq Müfəttişi
Chief Veterinary Officer

# DOXATIB
# BAYTARLIQ PREPARATLARININ İSTİFADƏSİ ÜZRƏ TƏLİMAT

**26/07/2023-cü il**

**1. "Preparatın ticarət adı"nın "Preparatın Azərbaycan dilində adı":** DOXATIB

**2. Preparatın beynəlxalq adı:** Doxycilline hyclate.

**3. Preparatın təsviri:** Xarici görünüşcə açıq- sarı rəngdən sarı rəngə qədər çalarlı toz şəklində.

**4. Dərman forması:** toz şəkilli

**5. Preparatın tərkibi fəal maddə:** DOKSITSIKLIN HIKLAT - 500 mq

**6. Farmako-terapevtik qrupu:** ANTIBAKTERIAL BAYTARLIQ PREPARATI

**7. Preparatın təyinatı:** HEYVANLARDA VƏ QUŞLARDA BAKTERIAL INFEKSIYALARIN MÜALICƏ MƏQSƏDI ILƏ

**8. Qablaşdırma forması:** Plastik qab

**9. Saxlanılma şəraiti və yararlılıq müddəti:** 24 AY ay. Preparat quru, qaranlıq və uşaqlar üçün əlçatmaz yerdə, 0°C-dən +25°C-dək temperatur şəraitində saxlanılmalıdır və daşınmalıdır. Qablaşma açıldıqdan sonra istehsalçı qablaşmasında, ağzı kip bağlı vəziyyətdə 12 ay ərzində saxlanıla bilər. İçməli suda hazırlanmış məhlul (+15°-dan +25°-dək) dərəcə temperatur şəraitində 24 saat ərzində yararlığını saxlayır.

**10. Təsiredici maddənin əsas fiziki-kimyəvi xassələri və farmakoloji xüsusiyyətləri:** Preparatın fəal maddəsi doksisillin hiklat yarısıntetik tetrasiklin qrupu antibiotiklərin törəməsi olub, Gram müsbət aeroblar (Actinobacillus sp., Bordetella sp., Francisella tularensis, Haemophilus sp., Pasteurella multocida, P. Haemolytica, Yersinia sp., Campylobacter fetus, Borrelia sp., Leptospira sp., Moraxella bovis), anaeroblar (Actinomyces sp., Fusobacterium sp.) və Mycoplasma sp., Clamydia sp., Ehrlichia sp., Coxiella burnetti, Eperythrozoonlara qarşı təsirlidir. Doksisillinin təsir mexanizmi bakeriya ribosomlarının 30S və 50S alt vahidlərini reversiyaya uğratmaqla onlara bağlanarak bakteriyaların protein sintezini dayandırır. O mədə- bağırsaqlardan sorularaq orqanizmin toxuma və mayelərinə tez bir zamanda nufuz edir.

**11. Tətbiqinə göstərişlər:** Preparat doksisillinə həssas olan bakteriyalar tərəfindən törədilən mədə-bağırsaq, tənəffüs və sidik- tənasül yollarının infeksiyalarına qarşı tətbiq edilir.

Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi
Avtomatlaşdırılmış Qida Təhlükəsizliyi İnformasiya sistemi – AQTİS
İmzalayan şəxs:
QEYD: "Elektron imza və elektron sənəd" haqqında Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir.Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**12. İstifadə və dozalaşdırma qaydaları:** Preparat Baytar həkiminin nəzarəti altında oral yolla tətbiq edilir. Buzovlara heyvanların hər 1 kq diri kütləsinə 5 mq Doksisillin hiklat hesabı ilə dozalaşdırılaraq içməli suya və ya südə qarışdırılmaqla gündə 2 dəfə verilməklə, müalicə 3- 5 gün davam etdirilir. Donuzlara heyvanların hər 1 kq diri kütləsinə 12,5 mq Doksisillin hiklat hesabı ilə dozalaşdırılaraq içməli suya qarışdırılmaqla onlara içirdilir, müalicə 4- 8 gün davam etdirilir. Ev quşlarına hər 1 kq diri kütləsinə 10- 20 mq Doksisillin hiklat hesabı ilə dozalaşdırılaraq içməli suya qarışdırılmaqla onlara 3- 4 gün içirdilir. Su ilə duruldulmuş məhlul 24 saat ərzində içilməlidir. Preparatlı su hər gün təzə, heyvanların və quşların içə biləcək həcmdə hazırlanmalıdır.

İşkənbə mikroflorası inkişaf etmiş buzovlarda, yumurtlayan quşlarda istifadə edilmir.

**Qeyd:** Preparat kütləvi tətbiq edilməzdən əvvəl kiçik qrup quşlar və ya heyvanlar (3-5 baş) üzərində sınaqdan keçirilir və 3 gün ərzində heç bir fəsad müşahidə edilmədikdə kütləvi tətbiq olunur. İstehsalçının istifadə təlimatında və qablaşma (tara) üzərində göstərilən istifadə və dozalaşdırma qaydaları üstün hesab edilməlidir. Verilmiş təlimat istehsalçı tərəfindən preparatın tərkibində hər hansı dəyişiklik edilmədiyi müddətdə etibarlıdır.

**13. Yanaşı mənfi təsirləri:** Heyvanlarda allergik reaksiyalar və ishal baş verə bilər.

**14. Artıq doza fəsadları:** Artıq dozada böyrəklərə nefrotoksiki təsir göstərə bilər.

**15. Əks göstərişlər:** Preparatın tərkibinə daxil olan antibiotikə yüksək fərdi həssaslığı olan heyvanlarda ciddi qaraciyər və böyrək çatışmazlığı olan heyvanlarda preparat tətbiq edilmir. İşkənbə mikroflorası yaxşı inkişaf etmiş heyvanlarda, yumurtlayan quşlarda tətbiq edilmir.

**16. Preparat tətbiq edilmiş heyvan məhsullarının qida kimi istifadə edilməsi üçün gözləmə vaxtı:** Buzovlar preparatın axırıncı verildiyi gündən 14 sutka, quşlar 8 gün, donuzlar isə 4 sutka sonra ətlik məqsədilə insanların qidalanması üçün istifadə edilə bilər.

**17. Təhlükəsizlik tədbirləri:** Preparatla işləyərkən fərdi mühafizə vasitələrindən (xalat, əlcək, maska, respirator və s.) istifadə edilməli, gigiyena və təhlükəsizlik qaydalarına əməl edilməlidir.

**18. Zərərçəkənə ilk yardım göstərilməsi qaydaları:** Preparat təsadüfən dəriyə və ya gözün selikli qişasına düşərsə bol su ilə yaxşı yumaq lazımdır.

**19. Preparatın nəqletmə qaydası:** Preparat quru, qaranlıq və uşaqlar üçün əlçatmaz yerdə, 0°C-dən +25°C-dək temperatur şəraitində saxlanılmalıdır və daşınmalıdır.

**İstehsalçı:** KRKA, d. d., Novo mesto, Sloveniya

**Baytarlıq preparatları üzrə normativ-texniki sənədlərin ekspertizası sektoru, Sektor müdiri:** **FİDAN BABAKİŞİYEVA**